**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XALQ RƏSSAMI HÜSEYN ƏLİYEVİN YARADICILIĞI

İxtisas: 6215.01 – "Təsviri sənət"
Elm sahəsi: Sənətşünaslıq

**İddiaçı: Səyyarə Namiq qızı Sadıxova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2021**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Xalq rəssamı, professor
**Hüseynqulu Əli oğluƏliyev**

**Rəsmi opponentlər:** Xalq rəssamı, professor
**Arif Şahbaz oğlu Hüseynov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Aslan Əkbər oğlu Xəlilov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Ramil Afiq oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Dissertasiya şurasının sədri: Xalq rəssamı, professor
____________ Fuad Məmməd-Emin oğlu Salayev

Dissertasiya şurasının
elmi katibi: sənətşünaslıq elmləri üzrə fəlsəfə
Doktoru, dosent
____________ Xanım Zəlimxan qızı Əsgərova

Elmi seminarın sədri: Xalq rəssamı, professor
____________ Natiq Kamal oğlu Əliyev

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Xalq rəssamı Hüseyn Əliyev (1911-1991) Azərbaycan təsviri sənətinin parlaq nümayəndələrindən biridir. Digər tərəfdən, sənətkarın orijinal bədii ifadə tərzi, üslub xüsusiyyətləri və dəsti-xətti Azərbaycan incəsənətinin bədii irsini zənginləşdirmişdir. Məhz, bu cəhətlərə görə müasir sənətşünaslıq elmində sənətkarın yaradıcılığının monoqrafik tədqiqinə ehtiyac var.

Təsviri sənətdə fərdi dəsti-xəttə malik olan Hüseyn Əliyevin – uzun illər Azərbaycan incəsənətinə xidmət edən istedadlı rəssamın yaradıcılığı indiyə qədər sistemli, geniş şəkildə araşdırılmayıb. Muzeylərdə, şəxsi kolleksiyalarda, qalereyalarda saxlanılan rəsm əsərləri bədii özünəməxsusluq baxımından elmi təsvir və təhlil olunmayıb. Hüseyn Əliyev sənətinin elmi araşdırılması incəsənət tariximizi genişləndirməklə bərabər, müasir Azərbaycan rəssamlığının inkişafına təkan vermiş olacaq. Bu baxımdan mövzunu kifayət qədər aktual hesab etmək olar.

Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığı daima sənətsevərlərin və mütəxəssislərin diqqətini özünə cəlb etmişdir. Rəssamın əsərləri müxtəlif kataloq və jurnallarda işıqlandırılaraq yaradıcılığının bəzi sahələri haqqında yazılar dərc olunmuşdur.

Karikatura haqqında kitab yazan alim və rəssamlardan B.Hacızadə, K.Kərimov, M.Nəcəfov adı çəkilən janrın Azərbaycanda da inkişaf etdiyini sübut edir.

Hüseyn Əliyevin mətbu orqanlarındakı fəaliyyəti qrafik rəsmləri və karikaturaları ilə səciyyələnir. Onun karikaturaları qabaqcıl ideyalarla zəngindir. Rəssamın nəvəsi Ədalət Əliyev öz 2009-cu ildə nəşr olunmuş “Azərbaycanın Xalq rəssamı Hüseyn Əliyev” adlı kitabında onun mütərəqqi ideyalarından bəhs etmişdir.

Vaxtaşırı mətbuat orqanlarında M.Nəcəfov, N.Həbibov, L.Eldarova, B.Hacızadə və başqaları rəssamın müxtəlif illərdə sərgilərdə nümayiş etdirilən rəngkarlıq və qrafika əsərlərindən söz açmışlar.1981-ci ildə rəssam haqqında “Xalq qəzeti"nin nəşriyyatının

dərc etdirdiyi kataloq, 2009-cu ildə Ədalət Əliyev tərəfindən "Hüseyn Əliyev" adlı miniatür kitab, 2011-ci ildə rəssamın 100 illik yubileyi ilə əlaqədar sənətşünas Lalə Eldarovanın Hüseyn Əliyevin monotipiyalarına həsr etdiyi albom dərc olunmuşdur.

Hüseyn Əliyev yaradıcılığının müxtəlif mərhələləri və bir neçə sahələrinə çoxsaylı məqalələrdə də rast gəlinir. Burada rəssamın müxtəlif janrlarda yaratdığı əsərlər diqqət mərkəzində olmuşdur. Bunlardan Əfsanə Bayramqızının "Xalq rəssamı Hüseyn Əliyevin xatirəsi dərin hörmət və ehtiramla anıldı", Flora Xəlilzadənin "Onun fırçası möcüzələr yaradırdı. Hüseyn Əliyev – 100", Bayram Hacızadənin "Azərbaycan Xalq rəssamı Hüseyn Əliyevin satirik qrafikası"adlı məqaləsini və digərlərini misal göstərmək olar.

Ümumiyyətlə, Hüseyn Əliyev yaradıcılığını öz yazılarında araşdıranlardan B.Hacızadə, N.Alıyev, Ü.Veysəlli, K.Kərimov, L.Eldarova, N.Bannayeva və digərlərini misal göstərmək olar. Bundan başqa, Ə.Salamzadə, K.Kərimov, N.Rzayev, R.Əfəndiyev və N.Həbibovun birgə yazdıqları "Azərbaycan incəsənəti" adlı kitabında da Hüseyn Əliyevin yaradıcılığına toxunulmuşdur.

Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığı daima sənətsevərlərin və mütəxəssislərin diqqətini özünə cəlb edib. Lakin rəssamın siyasi xadimlərə, eləcə də ailəsinə və dostlarına həsr etdiyi tablolar, natürmort, anmalistik və süjetli tablolar, mücərrəd kompozisiya quruluşuna malik mənzərələr, akvarel-monotipiyalar, karikatura və qrafik rəsmlər bu vaxta qədər geniş sənətşünas təhlilinə cəlb olunmamış, sadəcə ayrı-ayrı kataloq və məqalələrdə əsas yaradıcılığını tam əhatə etməyən məlumatlar dərc olunmuşdur. Hazırki tədqiqat işində onlar əhatəli şəkildə öz əksini tapmışlar.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas tədqiqat obyektini Hüseyn Əliyevin rəngkarlıq və qrafika sahəsində işlədiyi tabloları, akvarel-monotipiya əsərləri, "Molla Nəsrəddin", "Kirpi" jurnallarında və "Kommunist" qəzetində dərc olunmuş karikaturaları təşkil edir.

Tədqiqat işinin predmetini Hüseyn Əliyevin yaradıcılığını səciyyələndirən bədii xüsusiyyətlərin, kompozisiya həllinin, yeni və

orijinal ifadə vasitələrinin, eləcə də, işlədiyi texniki üsulların təhlili təşkil edir. Rəssamın yaradıcılığındakı yeni təmayüllər araşdırılıb və konkret nəzəri müddəalarla təsbit olunmuşlar.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycanın Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığını sistemli təhlil edərək, rəssamın özünəməxsusluğunu, dəsti-xəttini, yaradıcılıq metodunu və mərhələlərini müəyyən etmək hazırki elmi-tədqiqat işinin əsas məqsədidir.

Eyni zamanda, rəssamın yaradıcılığının əksər hissəsini təşkil edən milli koloritə məxsus Azərbaycan motivlərini, akvarel-monotipiyaları, portretləri, karikatura və qrafik rəsmləri, natürmort, animalistik və məişət janrlarında olan azsaylı tabloları, süjetli kompozisiyaları təhlil etmək Hüseyn Əliyevin yaradıcılığının kompleks şəkildə tədqiqinə dəlalət edir.

Hüseyn Əliyev yaradıcılığının həmdövr və müasir Azərbaycan incəsənəti kontekstində öyrənilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- Dissertasiya işində Hüseyn Əliyevin çəkdiyi əsərləri müvafiq janrlar üzrə qruplaşdırmaq;
- Xalq rəssamının indiyə qədər öyrənilməmiş əsərlərini təhlil etmək;
- Rəssamın əsərlərini, faktiki materialları aşkara çıxarmaq və sənətşünaslıq baxımından araşdırmaq;
- Rəssamın bədii irsini araşdırmaqla onun yaradıcılıq xüsusiyyətlərini xarakterizə etmək;
- Bədii irsində ən çox rast gəlinən təsviri sənət cərəyanlarını müəyyənləşdirmək;
- Hüseyn Əliyevin Azərbaycan təsviri sənətində rolunu müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat prosesində elmi-nəzəri, əyani-təcrübi materialların təhlili, elmi səfərlər zamanı toplanmış məlumatlar və müşahidə metodlarından geniş istifadə edilmiş, müqayisəli təhlil metoduna üstünlük verilmişdir. Araşdırma prosesində hər paraqrafda xronoloji ardıcıllığa riayət olunmuşdur. Xronoloji ardıcıllığa riayət edilməsi sənətkarın yaradıcılıq

spesifikasında baş verən dəyişikliklərin izlənilməsi aspektindən əhəmiyyətlidir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Rəssamın yaradıcılığı kompleks şəkildə araşdırılıb aşağıdakı nəzəri müddəalar irəli sürülmüşdür:

- Hüseyn Əliyevin yaradıcılığının erkən və yetkin dövrlərinə dəqiq cizgilər, səlis konturlar, aydın seçilmiş mövzular, formaların sadə və anlaşılan olması, şux və əlvan rəng palitrası xarakterikdir.
- Onun 1970-ci illərdən sonrakı dövr yaradıcılığı isə, mücərrəd formalar, qeyri-dəqiq cizgilər, üslub və texnika dəyişikliyi ilə xaraktarizə olunur.
- Təsviri sənətin realizm, sürrealizm, primitivizm, ekspressionizm, simvolizm, abstraksionizm və başqa cərəyanlarında fırçasını sınamışdır.
- Hüseyn Əliyevin zəngin yaradıcılığında qrafikanın və rəngkarlığın müxtəlif sahələri öz əksini tapmışdır.
- Hüseyn Əliyevin çəkdiyi əsərlər dissertasiya işində müvafiq janrlar üzrə qruplaşdırılmışdır.
- Elmi araşdırma müddətində 2018-ci ilin iyun ayında tərəfimizdən Hüseyn Əliyevin tamaşaçı və oxucu kütləsinə məlum olmayan bir sıra əsərləri − karikaturalar, plakatlar və bir mənzərə işi aşkara çıxarılmışdır.
- Hüseyn Əliyevin çəkdiyi karikaturalar xalqın maariflənməsi baxımından çox böyük əhəmiyyətə malikdir.
- Hüseyn Əliyevin yaratdığı portret əsərləri öz təbiiliyi ilə diqqəti cəlb edir.
- Rəssamın yaradıcılıq üslubunda əsasən gərgin emosional xüsusiyyətlər, daxili psixoloji və fəlsəfi keyfiyyətlərin üstünlüyü diqqət mərkəzindədir.
- Hüseyn Əliyevin bədii irsinin timsalında öyrəndik ki, təsviri incəsənət əsərləri yalnızca məkan çərçivəsində mövcud deyil və heç də baxan kimi anlaşılmırlar, kitablarda, bədii əsərlərdə olduğu kimi onları da “oxuyub” qavramaq üçün müəyyən zaman tələb olunur.
- Onun bəzi animalistik tablolarında ümumbəşəri dəyərlərə

rast gəlinir. Bu janrda olan əsərlərində rəssam alleqoriyadan və simvolikadan geniş istifadə etmişdir.

- "Yaşıl alma" və "Royalın üstündə alma" natürmortları dərin fəlsəfi məna kəsb edir. Bu tablolarda avanqard üslub- sürrealizm duyulur.

- Rəssam öz mənzərə işlərində milli təbiət motivlərinə üstünlük vermişdir. Onun təbiət mənzərələrinə və primitivizm üslubuna müraciət etməsi təsadüfi deyildi

- Hüseyn Əliyev, akvarel-monotipiya texnikasını Azərbaycan təsviri sənətində tətbiq edən ilk rəssam olmuşdur. Xalq rəssamının monotipiya əsərləri motiv və rəng həllinin zənginliyi ilə fərqlənir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində bir neçə elmi yeniliklər əldə edilmişdir. Onlardan birincisi odur ki, elmi araşdırmalar zamanı Hüseyn Əliyevin indiyə qədər tədqiq olunmamış rəngkarlıq, qrafika, akvarel-monotipiya əsərləri təhlil olunmuşlar. Hüseyn Əliyevin müəllifi olduğu əsərlər müvafiq janrlar üzrə dəqiq qruplaşdırılaraq bu vaxta qədər heç bir yazılı mənbədə bəhs olunmayan tabloları və onların bədii xüsusiyyətləri araşdırılmışdır.

Hüseyn Əliyevin yaradıcılığını xarakterizə edən bədii və texniki xüsusiyyətlər, yeni və orijinal ifadə vasitələri müəyyənləşdirilmişdir. Rəssamın geniş diapazonlu yaradıcılığı ayrı-ayrı janrlara, eləcə də yaradıcılıq xüsusiyyətlərini səciyyələndirən əsərlərin bədii ifadə formasına görə paraqraflara bölünərək ayrıca təhlil olunmuşlar.

Eyni zamanda, bundan əvvəlki yazılı mənbələrdə bir çox əsərlərin təxmin edilərək yalnış qeyd olunmuş texnikalarına yenidən baxılmış, aydınlaşdırılmış və həmin səhv məlumatlara dissertasiyada düzəlişlər edilmişdir.

Elmi araşdırmalarımız müddətində 2018-ci ilin iyun ayında bizim tərəfimizdən Hüseyn Əliyevin tamaşaçı və oxucu kütləsinə məlum olmayan bir sıra əsərləri − karikaturalar, plakatlar və bir mənzərə işi − aşkara çıxarılmış və tədqiqata cəlb edilmişdir ki, bu da dissertasiya işinin ən vacib elmi yeniliklərindəndir.

Hüseyn Əliyevin bədii irsinin timsalında öyrəndik ki, təsviri

incəsənət əsərləri yalnızca məkan çərçivəsində mövcud deyil və heç də baxan kimi anlaşılmırlar, kitablarda, bədii əsərlərdə olduğu kimi onları da “oxuyub” qavramaq üçün müəyyən zaman tələb olunur. İnsanın qəbul etdiyi informasiya heç də yalnız hərflər və yaxud musiqi notları ilə deyil, həm də təsviri sənətdə xətt, rəng, faktura, işıq-kölgə, kompozisiya və başqa ifadə vasitələri ilə də ola bilər. Dünya estetikasında uzun illərdir ki, incəsənətin növləri haqqında kanon halını almış fikrə qarşı bu ilk iddia hazırki tədqiqat işinin əsas elmi yeniliklərdən biridir.

Başqa bir elmi yenilik ondan ibarətdir ki, “Yaşıl alma” və “Royalın üstündə alma” natürmortları dərin fəlsəfi məna kəsb edir. Bu tablolarda avanqard üslub-sürrealizm duyulur. Bu əsərlərin yaranmasında dünyanın tanınmış sürrealist rəssamları olan Salvador Dali və Rene Maqrittin əsərlərinin böyük təsiri olması müəyyən edilmişdir.

Azərbaycan təsviri sənətində hamıdan əvvəl Hüseyn Əliyevin tətbiq etdiyi akvarel-monotipiya texnikasının necə işlənməsi haqqında bu dissertasiya işində araşdırılıb azərbaycan dilində ilk dəfə olaraq ətraflı məlumat verilib.

Azərbaycanın Xalq rəssamının animalistik əsərlərində qlobal mövzulara toxunulmuşdur. Elmi araşdırmalarımız və müqayisəli təhlillərimiz nəticəsində bizə aydın oldu ki, Hüseyn Əliyevin animalistik tablolarında tez-tez təsvir olunan qartal obrazı doğma Azərbaycanı, ilan isə düşmən ölkəni bildirən konkret simvollardır.

Yaradıcılığında primitivizm üslubuna müraciət etməsi ilk dəfədir ki, müəyyən olunur. Bu üslubda onun işləməsinin səbəbləri ilk dəfədir ki, araşdırılır.

Rəssam öz mənzərə işlərində milli təbiət motivlərinə üstünlük vermişdir. Tədqiqatlarımızdan belə aydın olur ki, onun təbiət mənzərələrinə və primitivizm üslubuna müraciət etməsi təsadüfi deyildi: dünyada baş verən siyasi dəyişikliklər, səhv yönləndirirlən elmi kəşflər, bir tərəfdən sürətlə inkişaf edən, amma digər tərəfdən də insanların zərərinə səbəb olan elmi-texniki tərəqqidən uzaqlaşaraq, təbiətin bir parçası olduğunu, yaradılışı daha yaxından hiss etmək üçün mənbəyə meyl göstərirdi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırki tədqiqat işi Azərbaycan incəsənət tarixini genişləndirərək təsviri sənətin ümumi inkişafında Azərbaycan Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığının əhəmiyyətini, yaradıcılıq metodunu müəyyən edir. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan təsviri sənətinin zənginliyini, növ və janr müxtəlifliyini və yaradıcılıq üslublarını genişləndirmiş olur. Rəssamın tədqiqatdan kənar qalmış əsərlərinin üzə çıxarılması həm sənətşünaslıq elminə, həm də Azərbaycan incəsənətinin inkişafına öz müsbət təsirini göstərəcəkdir.

Tədqiqatın praktik əhəmiyyəti isə rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam və sənətşünas tələbələrə "Azərbaycan təsviri sənəti tarixi" mövzusunda xüsusi kurslar çərçivəsində tədris oluna bilməsi ilə şərtlənir. Rəssamın yaradıcılıq praktikasına aid müddəalar gənc rəngkar və qrafiklər üçün əməli tövsiyələr rolunu oynaya bilər. Dissertasiya Hüseyn Əliyevin yaradıcılığı haqqında yazılmış elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs və dissertasiyada toxunulan problemlə maraqlanan geniş oxucu kütləsi üçün dəyərli mənbə vəsaitidir.

**Aprobasiyası və tətbiqi.** Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 12 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş 6 səhifə, I fəsil (3 paraqrafdan ibarət olmaqla) 50 səhifə, II fəsil (2 paraqrafdan ibarət olmaqla) 42 səhifə, nəticə 5 səhifə, istifadə olunmuş ədəbiyyat 6 səhifə və illüstrasiyalar siyahısı 9 səhifə, işin ümumi həcmi 122 səhifə-210967 işarədən ibarətdir.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**Girişdə** mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə dərəcəsi, eləcə də, işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqqında məlumat verilir.

**I Fəsil** – "**Hüseyn Əliyevin yaradıcılığının özünəməxsusluğu və bədii xüsusiyyətləri**" adlanır və rəssamın erkən dövr yaradıcılığına, bu dövr üçün xarakterik olan qrafik rəsmlər, karikaturalar, həmçinin portret, natürmort, məişət və animalistik janrda olan əsərlərinə həsr olunmuşdur. Bu fəsil üç paraqrafdan ibarətdir. **"Hüseyn Əliyevin yaradıcılığında qrafik rəsmlər və karikaturalar"** adlanan **birinci paraqrafda** rəssamın yaradıcılığının ilkin dövründə işlədiyi qrafik rəsm və karikaturaları öz əksini tapmışdır.

XX əsrin uğurlu karikaturaçıları sırasına Hüseyn Əliyevi də daxil etmək vacibdir. Bakı Rəssamlıq Texnikumuna daxil olduqdan sonra o, dövrünün görkəmli maarifçiləri ilə tanış olmuşdu. O, hələ tələbə ikən Molla Nəsrəddin jurnalı ilə əməkdaşlıq etməyə başlayır. Rəssam burada Cəlil Məmədquluzadə kimi böyük mütəfəkkirlə tanış olur və onun əsərərindən, mütərəqqi fikirlərindən çox bəhrələnır.

Hüseyn Əliyevin yaradıcılıq fəaliyyəti çoxşaxəli və rəngarəngdir. O, rəssamlığa mənzərə janrı ilə qədəm qoysa da onun yaradıcılığının ilk çiçəklənmə dövrü karikatura janrı ilə başlayır. Hüseyn Əliyevin mətbuata gəlişi 1929-cu ildə "Molla Nəsrəddin" jurnalının 2-ci nömrəsində çap olunmuş "Köhnə əlifbanın dəfni", "Şuşada pioner dəstəsi, yaxud İran qoşunu" adlı karikaturalar ilə baş tutdu və bundan savayı sözü gedən mətbuat orqanında aktual mövzularda bir sıra əsərləri ardıcıl dərc olunmağa başladı.

Hüseyn Əliyev 1931-ci ildən başlayaraq "Kommunist" qəzetində əvvəlcə siyasi xarakter daşıyan karikaturalarla oxucuların diqqətini cəlb etdi.

1952-1987-ci illər arasında "Kirpi" jurnalında xalq rəssamının "Dövlət malını talayanlar", "Tənqidi boğanlarla mübarizə",

"Elmdə

tənəzzül", "Məhsul yığımının pis təşkil olunması", "Alkoqolizm" və müxtəlif adlar daşıyan onlarla karikaturaları çap olundu. Onun alleqorik əsərləri sırasında cəhaləti, acgözlüyü qamçılayan karikaturaları, müxtəlif məzmunlu təsvirləri də vardır.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar incəsənət xadimi Bayram Hacızadə xalq rəssamı Hüseyn Əliyevin "Kirpi" jurnalında dərc olunan əsərləri haqqında belə qeyd edir: *"Hər zaman özünün məhsuldar fəaliyyəti ilə seçilən Hüseyn Əliyev "Kirpi"nin birinci nömrələrindən başlayaraq jurnalla sıx əməkdaşlıq etmiş, dövrü üçün aktual problemləri işıqlandırmağa müvəffəq olmuşdur. Bu dövrün satirik qrafikası mövzu rəngarəngliyi ilə seçilirdi desək yanılmarıq. Ölkədə, cəmiyyətdə ən vacib ictimai-siyasi hadisələrə münasibət bildirən rəssam, xalqın yaradıcı əməyini öz əsərlərində təsvir edir, cəmiyyətin inkişafına mane olan yabançı ünsürlərə qarşı mübarizə aparırdı".*[1]

*"Hüseyn Əliyevin karikaturalarında maarifləndirici ideyalara rast gəlinir. O, qrafik rəsm və karikaturalarında əsasən, cəmiyyətdə baş verən siyasi hadisələrə qarşı öz mövqeyindən çıxış edərək, simvolizə olunmuş bədii təsvir vasitələri ilə ideyalarını ifadə etmişdir."*[2]

Karikatura janrı Hüseyn Əliyevin yaradıcılığının ən geniş tədqiq edilmiş sahəsi olsa da, 1953-cü ildə nəşr olunmuş "Kirpi" jurnalından başqa heç bir yazılı mənbədə işıqlandırılmamış karikaturaları, eləcə də, plakat və məişət janrlı tabloları tərəfimizdən 2018-ci ildə aşkar edilmişdir. Onlardan həmin ildə "Kirpi" jurnalının 7-ci və 9-cu saylarında dərc olunmuş

---

[1] Hacızadə B. Azərbaycan Xalq rəssamı Hüseyn Əliyevin satirik qrafikası // "Mədəniyyət dünyası" Elmi-nəzəri məcmuə, ADMİU, XXV buraxılış, Bakı, – 2013, –s.178-183

[2] Садыхова, Н.С. Жанровые особенности творчества азербайджанского художника Гусейна Алиева//– Москва: Московский Государственный Хозяйственный Университет Промышленности журнал "Вестник". –2017 –с.459-465

karikaturaları nümunə göstərmək olar. Bu satirik rəsmlər "İki məktəblinin söhbəti" və "Rayonların çoxunda süd təhvili planı yerinə yetirilmir" adlanır.

Qeyd olunan birinci əsərdə fikirləri bir-birinə zidd olan iki məktəbli təsvir olunmuşdur. Əsərin mənasını açmağa xidmət edən köməkçi təsvirlərdən belə məlum olur ki, onlar arasında elm və asan yolla əldə edilmiş qazancın müqayisəsindən söhbət gedir.

İkinci karikatura "Kirpi" jurnalının 9-cu nömrəsində çap olunmuşdur.

*"Kağız üzərində sulu boya ilə işlənmiş hər iki karikaturanın üzərində müəllif Hüseyn Əliyevin imzası var".*[3]

**İkinci paraqraf "Xalq rəssamının portret yaradıcılığında xarakterin özünəməxsus tərənnümü"** adlanır. Bu paraqrafda Hüseyn Əliyevin portret janrında müxtəlif texnikalarda işlədiyi əsərlərin təhlili verilmişdir.

Əksər portret əsərlərində rəssam müraciət etdiyi köməkçi detallar vasitəsilə qəhrəmanların kimliyinin təyin olunmasını asanlaşdırmışdır. Məsələn, "Hüseyn Cavidin portreti" gözəl nümunədir. Böyük şairin duruşu, baxışı, aralıda görünən Araz çayı, İlandağ tamaşaçıya onun Naxçıvanda olduğunu xəbər verir.

Rəssama şöhrət gətirən portret görkəmli ədib Mirzə Fətəli Axundova həsr olunmuşdur. Hüseyn Əliyev Mirzə Fətəli Axundovun fəlsəfi fikirlərini və düşüncələrini bəyənirdi. Ona qarşı olan rəğbət və hörmət hissindən irəli gələrək rəssam böyük mütəfəkkiri canlandırmışdır.

XX əsrin 30-cu illərinin sonlarında çəkdiyi Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının, Mirzə Ələkbər Sabirin,

Əbdürrəhim bəy Haqverdiyevin, Aleksandr Puşkinin əmək qəhrəmanlarından olan Bəsti Bağırova və Şamama Həsənovanın portretləri sənət ustasını daha da məşhurlaşdırdı. Bundan savayı Hüseyn Əliyev bu janrda onlarla görkəmli şəxsiyyətlərin, alimlərin, sənət və zəhmət adamlarının, eyni zamanda ailə üzvləri və tanışlarının da portretlərini yaratmışdır.

---

[3] Sadıxova S. Azərbaycan incəsənətinə töhvələr // "Mədəniyyət" qəzeti, –2018, 27 iyul , №57(1547). – s. 12

Hüseyn Əliyev Azərbaycan tarixini, incəsənətini, ədəbiyyatını sevən bir şəxsiyyət kimi hər zaman görkəmli simaların obrazlarını özünəməxsus həssaslıqla yaratmışdır. Onun portretləri sadə və realdır.

Rəssamın portret əsərlərində də rəng, incə lirika və həyatilik ilə aşılanmış inandırıcı obrazlarla, onların psixoloji aləmi ilə bir harmoniya yaratmışdı.

**"Hüseyn Əliyevin yaradıcılığında natürmort, məişət və animalistik janrlar"** adlanan **üçüncü paraqrafda** rəssamın adları çəkilən janrlardakı əsərlərindən bəhs olunmuşdur.

Hüseyn Əliyevin ilk fırça təcrübəsi 12 yaşında ikən çəkdiyi mənzərə və portretlə başlamış, ilk natürmortu isə 1932-ci ildə sulu boya ilə işlənmişdir. Predmet seçimində Hüseyn Əliyev, kifayət qədər təvazökarlıq nümayiş etdirirdi. Onun natürmortlarında bahalı əşyalar nəzərə çarpmır, bu da rəssamın xarakterinin sadəliyini bir daha sübut edir. Hüseyn Əliyevin natürmortlarının parlaq kontrastlı rəngləri, müxtəlif çeşidli fakturaları əsas predmet və məhsulları neytral fondan ayıraraq onların dekorativ keyfiyyətlərini ortaya çıxarır. Hüseyn Əliyev yaradıcılığının sonrakı mərhələlərində də natürmort janrına müraciət etmişdir. Belə əsərlərindən biri 1965-ci ildə sulu boya ilə işlədiyi "Royalın üstündə alma" adlı natürmortdur.

Rəssam burada mükəmməl fantaziyasını ortaya qoymuşdur. Belə ki, əsərdə təsvir olunan predmet ilk baxışda hansısa səma cismini xatırladır. Diqqətlə izlədikdən sonra bu predmetin parlaq səth üzərinə əksi düşmüş alma olduğu anlaşılır. Səma cisimlərinə böyük maraq göstərən rəssam aya bənzətdiyi almanı əsərin adından da göründüyü kimi royalın üzərində təsvir etmişdir. Almanın üzərindəki ləkələr və bəlkə də, su damlaları ayın səthində görünən kraterlərə oxşayır. Əslində, bu əsərlə rəssam tamaşaçılarına sanki bir mesaj göndərmişdir; hər hansı bir predmetə və yaxud həyat hadisəsinə təkcə baxmaq kifayət deyil, onu görmək əsas şərtdir.

Xalq rəssamının oxşar kompozisiyaya malik olan əsərlərindən biri də "Yaşıl alma" natürmortudur (1982). Əvvəlki tabloda

olduğu kimi bu əsərdə də eyni konsepsiya özünü göstərərək ilk baxışda tamaşaçıda suyun üzərinə əksi düşmüş ay təəssüratı yaradır.

Bu tabloların yaranmasında S.Dali və R.Maqrittin sürrealist əsərləri Hüseyn Əliyev üçün ilham mənbəyi olmuşdur.

Müasir günümüzdə belə sənət əsərləri müxtəlif texnikalarda, xüsusilə də kompüter qrafikası ilə yaradılaraq KİV-də tez-tez yayımlanır. Lakin dünyaca məşhur sürrealist rəssamlar S.Dali və R.Maqrittdən bəhrələnmiş olsa belə, Azərbaycanda Hüseyn Əliyev bu effektə hələ XX əsrin 60-cı illərində nail olmuş ilk rəssamdır.

Hüseyn Əliyev öz yaradıcılığında artıq bəhs etdiyimiz janrlarla yanaşı süjetli kompozisiyalara, məişət mövzusuna da yer vermişdir. Məişət janrı insanların gündəlik həyatını, sosial və milli əxlaqi sistemini, yaşam tərzini özündə ehtiva edir. Azərbaycanda da bir çox rəssamların əsərlərində bu janr əhəmiyyətli yerə malikdir.

1950-ci illərdən başlayaraq Hüseyn Əliyev konkret məişət hadisələrinə müraciət edərək xalqın həyatından götürülmüş səhnələr yaradırdı. “Dalaşıblar”, “Çobanlar”, “Bizim həyətdə” (2 variantda), “Azərbaycan torpağında” triptixi, “Nabran”, “Dəniz” adlı əsərlər onun məişət mövzulu tablolarına və süjetli kompozisiyalarına nümunədir.

Gündəlik həyatın ən müxtəlif tərəflərinə müraciət müxtəlif janrlı təsvirlərin, bir-birindən fərqli tiplərin formalaşmasını şərtləndirmişdir. Hüseyn Əliyev insan və heyvanlar arasında baş verən mübarizəni, bəzən isə, yalnız insanlar arasındakı psixoloji konflikti təsbit etməyə meyilli idi. Onun ilk belə əsərlərindən 1954-cü ildə sulu boya ilə çəkdiyi “Dalaşıblar” adlı süjetli kompozisiyadır. Burada nə vaxtsa dalaşdıqlarından bəri ilk dəfə qarşı-qarşıya gələn, amma hələ də bir-birinin üzlərinə baxmağa cürət etməyən iki gənc təsvir olunmuşdur. Əsərlərində həmişə xarakter axtarışında olan Hüseyn Əliyev bu psixoloji durumu personajın jestləri, üzlərinin ifadələri vasitəsilə tamaşaçıya məharətlə çatdırmışdır. O, xüsusilə də bu tabloda mimika və

jestlərin tamaşaçıya aydın çatdırılmasında iti müşahidəçilik qabiliyyəti sərgiləyir.

“Çobanlar”, “Bizim həyətdə”, “Nəğməli torpaq” (triptixin 3-cü hissəsi), “Atlı” adlı məişət səhnələrində rəssamın dəsti-xətti nəqledici və ahəstədir. Bu əsərlərdə mövzu dərinliyinə rast gəlinmədən məişətin tematikasına lirik yanaşma özünü göstərir. Onların kompozisiyaları tabloda iştirak edən personajların qarşılıqlı münasibəti və xarakterlərin incə təsviri üzərində qurulmuşlar. Haqqında bəhs edilən əsərlər özünəməxsus poetik cazibəsi ilə “Zəhmli torpaq” (triptixin 1-ci hissəsi), “Səmada əlbəyaxa”, “Qisas”, “Heyvanlar da narahatdır” adlı emosional tablolardan fərqlənir.

Fırça ustasının məişət tablolarının iştirakçıları sadə kəndlilər, zəhmətkeşlər və çobanlardır. Maraqlı texnikada həll edilmiş əsərlər sırasına “Çobanlar” (1957) adlı məişət tablosu da daxildir. Dəmir üzərində yağlı boya ilə ərsəyə gətirilən bu əsərdə rəssam təbiətlə insanı harmonik vəhdətdə təsvir etmişdir.

Hüseyn Əliyevin məişət səhnələrinin qəhrəmanları çox vaxt qayğıdan, dərd-qəmdən uzaq, əyləncəyə meyilli insanlardır.Onun “Bizim həyətdə”, “Sülhsevər torpaq”, “Nabran” əsərlərində nikbinlik, həyatsevərlik hökm sürür.

Yaradıcılığını araşdırarkən məlum olur ki, 1970-ci illərdə müxtəlif janrlı əsərlərdə rəssamın tematikası genişlənir, yaradıcılığında bəşəri süjetlərlə yanaşı animalistik janrda olan təsvirlərə də rast gəlinir. Onun “Balıq”, “Ağ ayı”, “Toyuq”, tovuzquşunu təsvir etdiyi “Göygöl”, “Ceyranlar çəmənlikdə”, “Geri mağaraya”, “Qartal zirvələrdə”, “Səmada əlbəyaxa” adlı animalistik əsərləri vardır.

Hüseyn Əliyev bütün yaradıcılığı boyunca yeni texnika və müxtəlif texniki-bədii effektlər axtarışında olmuşdur. Bu yaradıcı axtarışlardan biri də 1970-ci ildə çəkdiyi natürmortda olduğu kimi həmin ildə işlədiyi “Balıq” animalistik tablosunda da özünü göstərir.

Hüseyn Əliyev öz animalistik əsərlərində dövrünün qlobal və aktual mövzularına toxunmuşdur. Onun yaradıcılığındakı qartal

obrazlarının təhlilini apararkən maraqlı məqamların şahidi olduq. Rəssamın bu obraza müraciəti heç də təsadüfi deyildi. Elmi araşdırmalarımız və müqayisəli təhlillərimiz nəticəsində bizə aydın oldu ki, Hüseyn Əliyevin animalistik tablolarında tez-tez təsvir olunan qartal obrazı doğma Azərbaycanı, ilan isə onu hər fürsətdə yıxmağa çalışan düşmən ölkəni bildirən konkret simvollardır. Ölkəmiz coğrafi ərazi quruluşu baxımından da qartala oxşayır.

Bununla belə, diqqət etsək görərik ki, Hüseyn Əliyev "Qartal" və "Qartal zirvələrdə" əsərlərini monotipiya texnikasında işlədiyi fon üzərinə sulu boya ilə qüvvətli qartal rəsmini əlavə etməklə yaratmışdır. "Səmada əlbəyaxa" əsərinin isə yağlı boya texnikasında işlənməsi onu deməyə əsas verir ki, bu tablonun süjeti əvvəldən sona kimi düşünülmüş, planlı şəkildə işlənmişdir. Çünki, "akvarel-monotipiya əsərlərində texnikanın "şıltaqlığından" da çox şey asılıdır. *"Akvarel-monotipiya texnikasının icrası zamanı kiçik bir ehtiyatsızlıq belə şüşə lövhənin gözlənilməz nəticə göstərməsinə gətirib çıxara bilər"*[4]. Amma yağlı boya ilə işlənmiş əsərlərin hər yaxısı rəssamın özünə məxsus olub bütünlükdə onun ixtiyarındadır.

Təbiəti, əmin-amanlığı sevən, təəssübkeş rəssam Hüseyn Əliyev "Heyvanlar da narahatdır" adlı plakat xarakterli tablosunda da Azərbaycana qarşı aparılan haqsız siyasətə qarşı xəbərdarlığı öz əksini tapır. 1987-ci ildə kətan üzərində yağlı boya ilə fırçaya aldığı bu əsərdə kompozisiyanın yuxarı hissəsində ağacın budağında vahiməyə düşmüş balalarını qoynuna qısmış meymunlar təsvir olunmuşlar. Bu vahimənin səbəbini isə rəssamın təcridetmə üsulu ilə kompozisiyanın gur hissəsindən ayırdığı uzaqdan görünən ağır artilleriya maşını ilə izah etmək olar.Tablonun ideyasına görə müharibə nəinki insanları, hətta heyvanları da narahat edir. Bu əsər vasitəsilə rəssam bəşər övladlarını sülhə səsləmiş, müharibənin mənfi nəticələrini

---

[4] Sadıxova S. Akril kağız və pleksiqlas üzərində sənət //–Bakı: "Mədəniyyət.az" Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, – 2015. – s. 86-89.

öncədən xəbərdarlıq etmişdir.

Birinci fəslin üçüncü paraqrafında **"Hüseyn Əliyevin yaradıcılığında natürmort, məişət və animalistik janrlar"**a dair araşdırmalar belə nəticə verdi ki, o, ən sadə mövzulu əsərlərində belə bəşəri ideyalarla çıxış etmişdir. Məhz, bu səbəbdəndir ki, onun əsərləri hər dövr üçün aktual və ölməzdir.

**"Hüseyn Əliyevin mənzərə janrındakı əsərlərinin bədii həlli"** adlandırılmış **II Fəsil** iki paraqrafdan ibarətdir. **"Rəssamın realistik mənzərə janrında icra etdiyi əsərlər"** adlı **birinci paraqrafda** mənzərə işlərində üslubun realizmi və milli təbiət motivlərindən lazımı qədər istifadə edilməsi ön plana çəkilmişdir. Müxtəlif ölçülü kağız üzərində sulu boya texnikası ilə işlənən və özündə müəllifin mənzərə janrının bədii xüsusiyyətlərinə bələdçiliyini yaşadan rəngarəng və düşündürücü görüntülər kifayət qədər səmimi və duyğulandırıcıdır.

Xalq rəssamı "Göygöl restoranı" adlı əsərində ön planda işığın sınması nəticəsində yaranan göy qurşağının müxtəlif rəng çalarları vasitəsilə optik illüziyanın məharətli həllini tapmışdır. Arxa planda və kompozisiyanın mərkəzində isə Göygöl restoranı durur. Restoranın təsviri üçün Hüseyn Əliyev meşə, dağlar və onların arasındakı düzəngahı planlarla işləyərək maraqlı nəzər nöqtəsi seçmişdir.

Sulu boya ilə həyat verdiyi əsrarəngiz təbiət təsvirlərindən biri "Göygöl sanatoriyasının bir guşəsi" əsəridir. Günəş şüalarının meşənin dərinliyinə kölgə salan sıx və hündür ağacların arasından süzülməsini və atmosferlə təması nəticəsində əmələ gətirdiyi rəng ahəngini bu tabloda ustalıqla əks etdirmişdir.

"Maralgöl" mənzərəsi üçün Hüseyn Əliyev dinamik kompozisiya seçmişdir. Rəvan xətlərlə işlədiyi "Göygöl" mənzərələrindəki statikanı rəssam "Maralgöl" tablosunda bilərəkdən pozmuşdur. Belə ki, yamacın kənarı ilə kəskin aşağı enib yenidən qalxan nisbətən açıq rəngli səlis xətlər qarşı tərəfdə yenidən qalınlaşıb nazilərək dinamikanı artırır, tamaşaçının baxışlarını bir anın içində çox uzaqlara – meşənin dərinliklərinə aparır.

Hüseyn Əliyev Göygölün ətrafındakı məkanı günün müxtəlif vaxtlarında fırçaya almışdır. Bu baxımdan "Göygöl gecəsi" əsərində 2 işıq mənbəyindən istifadə edərək səmanı ayın, yeri isə, tonqalın məharətli təsviri ilə işıqlandırmışdır. Sənətkar alovun şöləsini ətrafdakı daş və stullara sanki gerçəkmiş kimi yansıda bilmişdir. Həmin tonqal ilə uzaqdan görünən ağacları da işıqlandıraraq meşənin qaranlığını nisbətən aradan qaldırmağa nail olmuşdur. Əsərdə ayın sarı-qırmızı rəngi ilə səmanın mavi-göy rəngi bənövşəyi çalarla asossiyasiya olunmuşdur. Hüseyn Əliyevin "Göygöldə gecə" əsərini rus mənzərə rəssamı Arxip İvanoviç Kuincinin (1842-1910) "Dneprdə gecə" adlı əsəri ilə müqayisə etsək yerinə düşər. Həmin əsərdə A.İ.Kuinci Dnepr çayı sahilində aylı gecəni təsvir etmişdir. Ayın rəngini Kuinci görkəmli rus kimyaçısı Dmitri Mendeleyevlə (1834-1907) birlikdə işləyib hazırlamışdır. Onlar istədikləri nəticəni almaq üçün boyalara fosfor qatmışdılar. Bu üsulla Kuinci Dnepr çayını sakit gecədə ay işığının zərif gümüşü rənginə bürümüşdü. Bu əsərin nümayiş olunduğu qaranlıq zal Kuincinin ayının işığı ilə aydınlanarmış. Amma zaman keçdikcə, fosfor öz qüvvəsini itirmiş, tabloda yalnız rənglər qalmışdır. Kuincinin ayı buludsuz, aydın havada təsvir olunduğu halda, Hüseyn Əliyevin qırmızı-sarı ayı dumanlı havada təbii rəngləri ilə hələ də bədirlənməkdədir".

Hüseyn Əliyevin təbiət təsvirləri yalnız lirik-realist mənzərələrlə məhdudlaşmır. O, həm də özünün təsviri sənətimizə gətirdiyi yeni üsulda-şüşə üzərinə çəkilərək kağıza həkk edilən akvarel monotipiyalannda maraqlı abstrakt mənzərələr yaratmışdır. Təbiət təsvirləri sənətkarın yaradıcılığının əsas xəttini təşkil edir. Hüseyn Əliyevin yaradıcılığına nəzər yetirsək, onun mənzərə janrına tez-tez müraciət etdiyinin şahidi olarıq. İstedadlı rəssamın yaradıcılığının əksəriyyətini təbiət mənzərələri təşkil edirdi. Doğma Azərbaycanı başdan ayağa dolaşan sənətkarın dəyərli mənzərə tablolarında Naxçıvan, Zəngəzur, Kəlbəcər, Laçın, Abşeron, Bakı, Gəncə-Göygöl, Lənkəran, İsmayıllı və digər bölgələrin füsunkar təbiətinin gözəllikləri əks olunmuşdur. Yaz, şəfəq, dağlar, dəniz, çay, göl və meşə onun ən çox müraciət etdiyi

mövzular idi. Təbiət onun təxəyyülünə hakim kəsilmişdi, yaddaşı daim onu Zəngəzur dağlarında yerləşən Azərbaycanın Comərdli kəndində keçən uşaqlıq illərinin təəssüratlarına qaytarırdı. Onun kətan üzərində yağlı boya ilə çəkdiyi ilk işi Zəngəzur dağlarının mənzərəsi idi.

*"Hüseyn Əliyevin kətan üzərində yağlı boya ilə ilk təcrübəsində bu rəmzi obraz Zəngəzurdur. Gözlənilmədən birinci planda yerləşdirilən realistik və dəqiq təsvir edilmiş yaşıllaşmaqda olan ağac fraqmenti tablonun sol tərəfini tutaraq, əsərin əsas məzmununun mücərrəd tərənnümünü gücləndirir. Ümumiləşdirmə və dekorativlik format etibarı ilə kiçik olan bu əsərə müəyyən bir möhtəşəmlik gətirir. Onu dekorativ panno kimi divara köçürülmüş şəkildə asanlıqla təsəvvür etmək olar."*[5]

Hüseyn Əliyev müxtəlif janr və üslublarda realistik rəsm ustası və mahir kolorist kimi özünü göstərmişdi. Buna baxmayaraq mənzərə rəssamın yaradıcılığının əsas mövzusu idi.

Bu yarımfəsildəhəmçinin, mənzərə janrında işlənmiş əsərlərin rəng, kompozisiya quruluşu və s. haqqında məlumat verilmişdir.

Rəssamın təbiət gözəlliklərini əks etdirən əsərləri monumentallığı və qeyri-adi koloriti ilə seçilir, onun Vətənə böyük sevgisindən xəbər verir. "Mənim müəllimim təbiətin özüdür" –Hüseyn Əliyev bu ifadəni tez-tez təkrarlayırdı. Təbiətə vurğunluğu onun hər bir əsərində, rənglərin palitrasında, yaradılmış komponentlərin reallığında hiss olunur.

*Sənətşünas N.Həbibov rəssamın mənzərələri haqqında belə qeyd edir:"1960-1970-ci illərdə yaratdığı peyzajlar sənətin məhz bu janrına yeni nəfəs və ruh gətirmişdi. Doğma yerlərin bənzərsiz təbiəti Hüseyn Əliyevin fırçası ilə kətan üzərində canlandıqca sanki yeni bir möcüzə ilə qarşılaşırdın."*[6]

Xalq rəssamı Mikayıl Abdullayev sənət dostunun bu uğurundan yazırdı: *"Dünya təcrübəsində yalnız italyan*

---

[5] Eldarova, L. Hüseyn Əliyev 1911-1991/ L. Eldarova.–Bakı: Sərvət , –2013.– 33 s.

[6] Габибов, Н.Д. Пейзажная живопись Азербайджана // Н.Д. Габибов – Москва: Искусство,– 1969, –с.146

*rəssamının bir dağın on görünüşündən başqa heç kim bir obyektin 25 görüntüsünü kətan üzərində əks etdirməyib". Təəssüf ki, bu əsərlərin yalnız 13-ü əlimizdədir, 3 əsərinin slaydı, 1 əsəri isə fotoşəkil formasında qorunub saxlanılmışdır. Hüseyn Əliyevin "Göygöl mənzərələri" adlı albomunda rəssamın 17 mənzərəsi verilmişdi."*[7]

Sənətşünaslıq doktoru, professor Kərim Kərimov Xalq rəssamı Hüseyn Əliyevin mənzərə əsərləri haqqında qeyd edir ki, *"Hüseyn Əliyev mənzərə əsərlərini yaradarkən şərqin miniatür rəssamlarının ənənəvi metodundan istifadə edir. Yəni, o, mənzərələrini xəyalında yaradır. Lakin bu xəyal təbiətin, bizi əhatə edən aləmin dərindən müşahidə edilməsinə və duyulmasına əsaslanır."*[8]

Rəssam tərəfindən yerinə yetirilmiş lirik təbiət lövhələri özünün bədii formasına, obrazlı quruluşuna görə dekorativ xarakter daşıyır. Bu saf, parlaq və şəffaf akvarel boyalar əsərin təsvir səthinin üzərini bütünlüklə örtərək bir tərəfdən gözəl rəng harmoniyası doğurur, digər tərəfdən müəyyən, bəzən hətta təcrid edilmiş, lakin həmişə dekorativ cəhətdən əsərin məzmununu açıb göstərən ifadəli obrazlar yaradır.

İkinci fəslin **"Monotipiya və qarışıq texnika ilə işlədiyi mücərrəd mənzərə əsərlərinin təhlili"** adlanan **ikinci paraqrafında** rəssamın müxtəlif dövrlərdə qarışıq texnikada yaratdığı mənzərələri vəmonotipiyaəsərləri şərh olunur.

Xalq rəssamı Hüseyn Əliyevin işlədiyi digər bir texnika akvarel-monotipiyadır. Akvarel texnikasının sirləri ilə Leninqradda (indiki Sankt-Peterburqda) tanış olan sənətkar Azərbaycana qayıdaraq onu tətbiq etməyə başladı. Bu texnikada su, boya və kağız birləşərək ortaya abstrakt anlayışa malik əsərlər meydana çıxarır. Rənglər qarışaraq mücərrədlik yaradır.

Akvarel sənəti çoxdan yaransa da, monotipiya texnikasını 17-ci əsrdə Genuyalı rəssam Giovanni Benedetto Kastiqlion kəşf

---

[7] Abdullayev, M. Onun təqlidi haqlı olardı. Hüseyn Əliyev-90// Xalq qəzeti. – 2001, 27 aprel.– s.5

[8] Kərimov,K. Hüseyn Əliyev. Lirik mənzərələr//.–Bakı.– İşıq. –1983,– s. 7.

etmişdir. G.B.Kastiqlionun ilk monotipiyası "Adəmin yaradılması" (1642) adlı əsər idi. Azərbaycan incəsənətində isəmonotipiya texnikasını ilk dəfə tətbiq edən Hüseyn Əliyevolmuşdur.

Hüseyn Əliyevin monotipiya kolleksiyası məzmun və faktura etibarilə kifayət qədər zəngindir. Onun monotipiya texnikası ilə işlədiyi mənzərələri tamaşaçıya sənətkarın yüksək bədii mədəniyyətini, texniki imkanlarının zənginliyini, vizual ifadə vasitələrindən geniş və sərbəst istifadə bacarığını yaradıcılığının bütün başqa janrlarından daha geniş və aydın şəkildə göstərir.

Hüseyn Əliyevin bu sahədəki yaradıcılığında reallıqla, şüaraltı düşüncənin, daxili hisslərin, təbiət hadisələrinin real tərənnümünü deyil, daha çox onlara olan münasibətini rənglər vasitəsilə əks etdirməyə cəhd etdiyini və bunu uğurla həyata keçirdiyini deməyə əsas verir.

Bu qəbildən olan əsərlərdəki kompozisiya əsasən təsvir obyektlərinin dinamikası üzərində qurularaq, uğurlu rəng münasibətləri əsasında həyata keçirilmişdir.

Hüseyn Əliyevin yaradıcılığına diqqət edərkən əsasən təbiət mənzərələrində detallardan daha çox güclü rəng çalarları və rənglərin bir-biri ilə oyunu sayəsində dinamikliyin şahidi oluruq. Rəssam əsərlərindəki ekspressiv dinamikanı məhz, yaxın və ya təzadlı rəng oyunları ilə həyata keçirmişdir.

"*Monotipiya texnikası ilə işlənmiş konseptual mənzərə xətti-sənətkarın bədii kredosunu ardıcıllıqla üzə çıxarmaq nöqteyi-nəzərincə, daha geniş və daha əhəmiyyətlidir*".[9]

Hüseyn Əliyevin monotipiya texnikası ilə işlədiyi mənzərələri tamaşaçıya sənətkarın texniki imkanlarının zənginliyini, vizual ifadə vasitələrindən geniş və sərbəst istifadə bacarığını açıb göstərir.

Xalq rəssamı Hüseyn Əliyev öz əsərlərini işləyərkən yaşadığı təəssüratları tamaşaçıya da yaşatmağa qadir olan böyük sənətkar kimi Azərbaycan təsviri sənətində bənzərsiz mövqeyini həmişə

---

[9] Eldarova, L. Titrəyən kölgələr, sayrışan işıq, Hüseyn Əliyev 1911-1991/L.Eldarova.– Bakı: – 2011.– 200 s.

saxlayacaqdır.

**Nəticədə** tədqiqatın mövzusuna dair uzunmüddətli araşdırmalarımız öz bəhrəsini vermiş, bir sıra qənaətlərə gəlinmişdir;

- Dərin fəlsəfi, əxlaqi-didaktik fikir aşılayan bütün təsviri incəsənət əsərləri,yalnızca məkan çərçivəsində mövcud deyil və heç də baxan kimi anlaşılmırlar, kitablarda, bədii əsərlərdə olduğu kimi onları da oxuyub qavramaq üçün müəyyən zaman tələb olunur. İnsanın qəbul etdiyi informasiya heç də yalnız hərflər və ya musiqi notları ilə deyil, həm də təsviri sənətdə xətt, rəng, faktura, işıq-kölgə, kompozisiya və başqa ifadə vasitələri ilə də ola bilər.
- Hüseyn Əliyevin çəkdiyi əsərlər dissertasiya işində müvafiq janrlar üzrə qruplaşdırılmışdır.
- Hüseyn Əliyevin yaradıcılığının erkən və yetkin dövrlərinə dəqiq cizgilər, səlis konturlar, aydın seçilmiş mövzular, formaların sadə və anlaşılan olması, şux və əlvan rəng palitrası xarakterikdir.
- Onun 1970-ci illərdən sonrakı dövr yaradıcılığı isə, mücərrəd formalar, qeyri-dəqiq cizgilər, üslub və texnika dəyişikliyi ilə xarakterizə olunur.
- Yaradıcılığında primitivizm və sürrealizmüslublarına müraciət etməsi ilk dəfəbu tədqiqat işində müəyyən olunub. Bu üslublarda onun işləməsinin səbəbləri ilk dəfədir ki, araşdırılıb.
- “Yaşıl alma” və “Royalın üstündə alma” natürmortları, fəlsəfi məna kəsb edir.
- 2018-ci ilin iyun ayında tərəfimizdən Hüseyn Əliyevin tamaşaçı və oxucu kütləsinə məlum olmayan bir sıra əsərləri aşkara çıxarılmış və tədqiqata cəlb edilmişdir ki, bu da dissertasiya işinin ən uğurlu nəticələrindəndir.
- Akvarel-monotipiya texnikası dünya rəssamlığında XVII əsrdən məlum olsa da, Hüseyn Əliyev bu texnikanı Azərbaycan təsviri sənətində tətbiq edən ilk rəssam olmuşdur.
- Elmi araşdırmalarımız müddətində akvarel-monotipiyanın işlənmə qaydası barədə azərbaycan dilində ilk dəfə olaraq ətraflı məlumat verilmişdir.

- Azərbaycanın Xalq rəssamının bəzi animalistik tablolarında qlobal mövzulara toxunulmuş və ümumbəşəri dəyərlərə rast gəlinir.

- Elmi araşdırmalarımız və müqayisəli təhlillərimiz nəticəsində bizə aydın oldu ki, Hüseyn Əliyevin animalistik tablolarında tez-tez təsvir olunan qartal obrazı doğma Azərbaycanı, ilan isə düşmən ölkəni, mənfi qüvvəni bildirən konkret simvolik obrazlardır. Bəzi digər animalistik tabloları kimi rəssamın bu əsərləri də ölkəmizlə əlaqədar müəyyən hadisələrlə bağlıdır.

Elmi tədqiqat işinin nəticələrindən rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam və sənətşünas tələbələrə “Azərbaycan təsviri sənəti tarixi”, “XX əsr Azərbaycan incəsənət tarixi” fənnlərin tədrisində istifadə oluna bilər.

Rəssamın yaradıcılıq praktikasına dair akvarel-monotipiya texnikasının işlənmə qaydaları və s. haqqında məlumatlar gənc rəngkar və qrafiklər üçün əməli tövsiyə rolunu oynayır.

Ölkəmizlə əlaqədar müəyyən hadisələrlə bağlı rəssamın təsvir etdiyi bəzi animalistik tabloların alleqorik xarakter daşıması təsbiti Azərbaycan siyasi və tarixi elmləri üçün yeni və maraqlı fakt ola bilər.

Dissertasiya Hüseyn Əliyevin yaradıcılığı haqqında yazılmış elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs və dissertasiyada toxunulan problemlə maraqlanan geniş oxucu kütləsi üçün dəyərli mənbə vəsaitidir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı elmi məqalələr dərc edilib:**

1. Hüseyn Əliyev boyakarlığında Göygöl mövzusu // "Elmi əsərlər" Naxçıvan NDU Qeyrət" nəşriyyatı – 2014 s. 189-193.
2. Akril kağız və pleksiqlas üzərində sənət // "Mədəniyyət.az" Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi 2015. s. 86-89.
3. Unforgettable Azeri painter Husein Aliyev //"Проблемы современной науки и образования". M. – 2015 . стр.240-243.
4. Husein Aliyev"s caricatures in satirical journals //European Research XI International scientific and practical conference. Moscow 2015, pp. 135- 137.
5. Müxtəlif incəsənət cərəyanlarının Hüseyn Əliyev yaradıcılığında təcəssümü //"Elmi əsərlər" Naxçıvan NDU "Qeyrət"– 2016 s.200-202
6. Xalq rəssamı Hüseyn Əliyev yaradıcılığında qrafika texnikası // Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları Azərbaycan Dövlət Neft və Sənaye Universiteti 24-25 may 2016-cı il 2 cilddə II cild Bakı – 2016 (NDU) s. 525-527.
7. Техники художеств азербайджанского художника Гусейна Алиева // AMEA-nın Naxçıvan bölməsi Elmi Əsərlər "Axtarışlar" Naxçıvan – 2016. s.160-166
8. Hussein Aliyev`s life-memories and creative activity in his partners` impressions //"Elmi əsərlər" Naxçıvan NDU "Qeyrət"–2017s.274-277
9. Жанровые особенности творчества азербайджанского художника Гусейна Алиева//Московский Государственный Хозяйственный Университет Промышленностижурнал "Вестник". M. -2017 c.459-465
10. Hüseyn Əliyevin yaradıcılığında natürmort janrı "Elmi

Əsərlər, Naxçıvan”: NDU, Qeyrət, 2017 № 5(86), s. 151-154
11. Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığında animalistik janr, “Elm, mədəniyyət və incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu” III Respublika elmi-nəzəri konfransı, Bakı - 2019, səh.72-76.
12. Hüseyn Əliyevin bədii irsində məişət janrı, “Elmi iş” beynəlxalq elmi jurnal, ISSN 2663-4619, “Humanitar və ictimai elmlərin əsasları” mövzusunda I Respublika elmi konfransının materialları, Bakı- 2020, səh.258-261.

Dissertasiyanın müdafiəsi 29 iyun 2021-ci il tarixində saat $11^{00}$

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası,
AZ1029, Bakı ş., H. Əliyev pr. 26

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.05.2021
Kağızın formatı: 60×90.1/16
Həcm:1,75
Tiraj: 100.

**REPUBLIC OF AZERBAIJAN**

*On the rights of manuscript*

# ABSTRACT

of the dissertation for the degree of Doctor of Philosophy

# HUSSEIN ALIYEV'S CREATIVE ACTIVITY

Specialty: Descriptive art

Field of science: Art-criticism-descriptive art

Applicant: **Seyyare Namiq Sadiqova**

**BAKU-2021**